# Ötən əsrdə müstəqillik xalqımızın taleyinə iki dəfə qismət oldu

(Əvvəli 4-cü səhifədə).

Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.

Lakin müstəqilliyini qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səbatsız, səriştəsiz adamların yeritdikləri səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, separatçılıq hərəkatı müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini reallaşdırırdı. Lakin böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu.

İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Xalqın öz dövlətçiliyi sarıdan heç bir narahatçılığı yoxdur.

Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına eyni dərəcədə diqqət yetirilir.

Azərbaycan bu gün həm siyasi, həm də iqtsadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi artım tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb. Regionda heç bir irimiqyaslı layihə Azərbaycanın iştirakı və razılığı olmadan həyata keçirilmir.

**Aslan CƏLİLOV.**

# Müstəqillik günü ilə əlaqədar tədbir

Fövqəladə Hallar Nazirliyinin mülki müdafiə qoşunlarının rayonumuzda yerləşən





«N» saylı hərbi hissəsində Müstəqillik Günü ilə əlaqədar rayon ağsaqqallarının və ictimaiyyət nümayəndələrinin əskərlərlə görüşü keçirilmişdir. Görüşü hissə komandirinin müavini polkovnik-leytenant İlham Əliyev açmış, Müstəqillik Gününün tarixi barədə məruzə etmişdir. Sonra Qırmızı Aypara Cəmiyyətinin Qəbələ Rayon Təşkilatının sədri Sədaqət Bayramova, rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev və Qüdrət Səmədov müstəqillik günü, onun qorunub saxlanmasında ulu öndər Heydər Əliyevin rolu barədə danışmış, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyilə ölkəmizdəki sosial-iqtisadi inkişafdan, Qəbələnin bu günündən söhbət açmışlar.

Tədbir rayon mədəniyyət və turizm şöbəsinin və hərbi hissənin musiqiçilərinin ifaları ilə davam etmişdir.

**Fotolar İ. Vəlizadənindir.**

# Müstəqilliyimizin 24 yaşı tamam oldu

18 oktyabr Azərbaycanın yeni tarixində əlamətdar günlərdən biridir. 24 il öncə Azərbaycan Respublikası Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Beləliklə, 1991-ci ilin bu günü Azərbaycan Respublikası 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyətinin davamçısı, varisi elan olundu. Ötən əsrin əvvələrində cəmi 23 ay müstəqil olan Azərbaycan yenidən azadlığa qovuşdu və 18 oktyabr-Azərbaycanın Dövlət Müstəqilliyi Günü kimi tarixə düşdü.

1993-cü ildə ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdışından sonra ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Zəngin siyasi təcrübəyə və böyük dövlətçilik qabiliyyətinə malik ulu öndər Heydər Əliyevin məhz belə bir ağır və mürəkkəb dövrdə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu. Beləliklə, 1993-cü ilin iyun ayından ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu və ulu öndər Heydər Əliyevin dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı.

Ulu öndərin hakimiyyətə qayıdışından sonra ağır vəziyyətdə olan ölkənin problemlərinin həlli istiqamətində konkret addımlar atılmağa başlandı. 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsi, dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də, ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addım oldu. Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsindən xilas oldu. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr zərərsizləşdirildi, cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi və cəzalandırıldı. Ölkədə əmin-amanlıq, sabitlik yarandı, azad bazar iqtisadiyyatına keçidlə bağlı özəlləşdirməyə geniş meydan verildi, aqrar sahədə islahatlara başlandı.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, konstitusiya məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşdirmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı.

Böyük öndər Heydər Əliyevin Azərbaycan üçün, xalqımız üçün gördüyü işləri sadalamaqla bitib tükənən deyil. Çünki, Azərbaycanın hər daşında, torpağında, quruculuq işlərində ulu öndərin əl izləri var, onun fəaliyyətinin uğurlu bəhrələrini hər yanda görmək mümkündür. O, bu gün sıralarımızda olmasa da, onun möhtəşəm işləri, əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və gözümüz önündədir. Onun müqəddəs ruhu həmişə bizimlə olacaqdır.

Ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, onun dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideyalarının dərindən öyrənilməsi və inkişaf etdirilməsi Qəbələ Rayon Heydər Əliyev Mərkəzinin də qarşısında duran ən prioritet məsələlərdən biridir. Ulu öndər Heydər Əliyev deyirdi:

"Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması, onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir"

Müstəqilliyimizin 24-cü ildönümünü qeyd edərkən qürur və iftixar hissi ilə deyə bilərik ki, bu gün Azərbaycan iqtisadi cəhətdən dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Bütün bunlar müstəqil Azərbaycanın tarixi nailiyyətləridir. Vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən qorunub saxlanılan müstəqilliyimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və onun əbədiliyi təmin edilir. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, qəhrəman insanlarımızın qanı bahasına qazanılmış Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir.

**Aygün MƏMMƏDOVA,**
**Heydər Əliyev Mərkəzinin böyük elmi işçisi.**

# Arxeoloji turizmin iştirakçıları Qəbələyə gəlmişlər

Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə turizm şirkəti və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə "Azərbaycanda arxeoloji turizm" adlı mədəni turizm marşrutuna start verilib. Xalqımızın mədəni dəyərlərinin təbliği, onlardan turizm məqsədləri üçün daha səmərəli istifadə olunması, həmçinin regionlarda turizmin inkişafı sahəsində mühüm əhəmiyyət kəsb edən info-turun ilk ünvanı rayonumuzun Çuxur Qəbələ kəndi olmuşdur.

İştirakçılar Qəbələ Dövlət Tarix-Bədii Qoruğu ərazisində yerləşən Qəbələ Arxeoloji Mərkəzi ilə tanış olmuşlar. Onlara ərazisi 6150 kvadratmetr olan mərkəzin üçmərtəbəli binası, sərgi salonu, arxeoloji fondu, bərpa laboratoriyası, konfrans zalı və arxeoloqların çalışdığı otaqlar haqqında məlumat verilmiş, 2013-cü ildə Səlbir ərazisindən tapılan II-III əsrlərə aid eksponatlar nümayiş etdirilmişdir. Diqqətə çatdırılmışdır ki, Qəbələnin zəngin tarixinin üzə çıxarılmasında son illər Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının (SEBA) gördüyü işlər mühüm yer tutur. Azərbaycanlı alimlərin koreyalı mütəxəssislərlə birgə apardıqları arxeoloji tədqiqatlar və qazıntılar nəticəsində Qəbələnin tarixinin açılmamış yeni səhifələri ortaya çıxmışdır. 2005-ci ildən bəri rayonda aparılan ardıcıl arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri SEBA-nın dəstəyi ilə Qəbələ Arxeoloji Mərkəzində saxlanılır.

Sonda iştirakçılar Səlbir ərazisində tapılan qədim yaşayış məskənin qalıqları ilə tanış olmuşlar.